**26 iyun - Azərbaycan Respublikası Silahlı Qüvvələri günü**


# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

№ 25 (1020) 21-27 iyun 2018-ci il

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır


# Futbol üzrə dünya çempionatına start verildi

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

İyunun 14-də Moskvadakı "Lujniki" stadionunda futbol üzrə növbəti dünya çempionatının təntənəli açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva mərasimdə iştirak ediblər.

Qeyd edək ki, iyirmiyə yaxın ölkənin dövlət və hökumət başçılarının da qatıldığı açılış mərasiminin proqramı zənginliyi və əvvəlki dünya çempionatlarının açılış mərasimlərinin proqramlarından fərqli formatı ilə əsaslı şəkildə seçildi. Budəfəki tədbir daha qısa vaxt ərzində və yığcam oldu, məşq ərəfəsində deyil, birbaşa Rusiya-Səudiyyə Ərəbistanı matçından əvvəl keçirildi.

Britaniyalı müğənni Robbi Uilyamsın və Vyana Operasının solisti, tanınmış opera müğənnisi Aida Qarifullinanın ifası mundialın açılış mərasiminə əlavə əzəmət qatdı.

Açılış mərasiminin prodüseri Rusiyanın Birinci kanalıdır. Bu əzəmətli şounun konsepsiyasının müəllifi isə rejissor Feliks Mixaylovdur. Bu işdə ona İlya Averbux da kömək göstərib. İkiqat dünya çempionu, braziliyalı futbolçu Ronaldo da açılış mərasiminə qatılıb.

Dünya çempionatına ev sahibliyi edən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mərasimdə çıxış etdi.

Rusiya dövlətinin başçısı bütün qonaqları Moskvanın əfsanəvi "Lujniki" stadionunda salamlayaraq, dünyanın mehriban futbol ailəsini çempionatın açılışı münasibətilə təbrik etdi. Bu möhtəşəm idman hadisəsinin ilk dəfədir ki, Rusiyada keçirildiyini deyən Vladimir Putin ölkəsində bu idman növünə xüsusi sevginin bəslənildiyini də əlavə etdi. O, bu idman




bayramını Rusiyada qəbul etmək üçün dünya çempionatına məsuliyyətlə hazırlaşdıqlarını bildirdi. "Harada yaşamağımızdan, hansı ənənələrə riayət etdiyimizdən asılı olmayaraq, bizim hamımızı bu parlaq idman növü - futbola sevgi birləşdirir. Futbolun gücünün əsasını humanizm təşkil edir. Çünki bu, birlikdir", - deyən Rusiya Prezidenti bu birliyi gələcək nəsillər üçün qoruyub saxlamağın vacibliyini vurğuladı.

FIFA-nın prezidenti Canni İnfantino da çıxışında Rusiyada başlayan futbol üzrə dünya çempionatının idmanın bu növünün həvəskarlarına maraqlı anlar yaşadacağını söylədi.

Otuz iki ölkənin yığma komandalarının mübarizə apardığı budəfəki futbol üzrə dünya çempionatı iyunun 14-dən iyulun 15-dək davam edəcək. Çempionat Rusiyanın 11 şəhərinin 12 stadionunda keçiriləcək.

Xatırladaq ki, açılış mərasimini "Lujniki" stadionunda 80 min, televiziya ilə birbaşa yayımla isə təqribən 1 milyard nəfərə qədər tamaşaçı izləyib. Rusiyada təşkil olunan futbol üzrə növbəti dünya çempionatı meydan sahiblərinin oyunu ilə başladı. Açılış mərasimindən dərhal sonra "A" qrupunda mübarizə aparan Rusiya və Səudiyyə Ərəbistanının yığma komandalarının görüşü başladı.

Xatırladaq ki, dünya çempionatında 32 komanda əvvəlcə 8 qrupda mübarizə aparır. Qruplarda birinci və ikinci yer tutan komandalar səkkizdəbir finala çıxacaqlar. Səkkizdəbir final mərhələsindən başlayaraq yarışlar Olimpiya sistemi ilə keçiriləcək, yəni uduzan komanda mübarizəni dayandıracaq.

Final görüşü iyulun 15-də Moskvada "Lujniki" stadionunda baş tutacaq. Üçüncü yer uğrunda matç isə iyulun 14-də Sankt-Peterburqda keçiriləcək.







# Azərbaycan OPEC və qeyri-OPEC ölkələrinin bu yeni razılaşmasına qoşulub

Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindonun dəvəti ilə iyunun 21-23-də Avstriyanın paytaxtı Vyanada səfərdə olacaq. Nazir Vyanada OPEC-in "Neft - dayanıqlı gələcək üçün əməkdaşlıq" mövzusunda keçiriləcək 7-ci beynəlxalq seminarında iştirak edəcək.



Energetika Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Pərviz Şahbazovun "Dünya iqtisadiyyatı üçün neftin gələcəyi" adlı beşinci sessiyada çıxışı nəzərdə tutulub. Bundan başqa, energetika nazirinin OPEC-ə üzv və kartelə daxil olmayan ölkələrin Nazirlərinin Birgə Monitorinq Komitəsinin 9-cu iclasında da iştirakı planlaşdırılır.

Pərviz Şahbazov OPEC Nazirlər Şurasının iyunun 23-də keçiriləcək 174-cü iclası çərçivəsində OPEC və qeyri-OPEC nazirlərinin 4-cü iclasına da qatılacaq.

Azərbaycan dünya neft bazarında tarazlığın və neftin qiymətinin sabitləşdirilməsi məqsədilə aparılan məsləhətləşmələrdə ilk vaxtlardan yaxından iştirakını davam etdirməkdədir.

Xatırladaq ki, 2016-cı il noyabrın 30-da OPEC üzrə gündəlik neft hasilatının 1,2 milyon barrel azaldılaraq 32,5 milyon barrelə endirilməsi barədə razılıq əldə olunub. Dekabrın 10-da isə Vyanada OPEC üzvləri ilə təşkilata daxil olmayan 11 ölkə, o cümlədən Azərbaycan ümumi hasilatın sutkada 558 min barrel azaldılması barədə sazişə imza atıb. Mayın 25-də OPEC Nazirlər Şurasının 172-ci iclası çərçivəsində OPEC-ə üzv və qeyri-üzv dövlətlər arasında neft hasilatının azaldılmasına dair sazişin müddətinin 2018-ci ilin birinci rübünün sonunadək uzadılması barədə razılıq əldə olunub. Ötən il noyabrın 30-da isə OPEC Nazirlər Şurasının 173-cü iclası çərçivəsində Neft İxrac Edən Ölkələr Təşkilatına üzv və kartelə daxil olmayan dövlətlərin nazirlərinin üçüncü görüşündə neft hasilatının azaldılmasına dair sazişin müddətinin 2018-ci ilin sonuna kimi uzadılması ilə bağlı qərar qəbul olunub. OPEC və qeyri-OPEC ölkələrinin bu yeni razılaşmasına Azərbaycan da qoşulub.

# Azərbaycanın iki şirkəti MDB İcraiyyə Komitəsinin mükafatına layiq görülüb

Belarusun paytaxtı Minsk şəhərində MDB İcraiyyə Komitəsinin binasında keyfiyyətli məhsul və xidmətlər sahəsində əldə olunmuş uğurlara görə MDB iştirakçı ölkələrinin müəssisələrinin mükafatlandırılması mərasimi keçirilib.



Azərbaycanın Belarusdakı səfirliyindən bildiriblər ki, mükafata MDB ölkələrindən 14 müəssisə layiq görülüb. Mükafat alan müəssisələr arasında Azərbaycanın "Azertenolayn" (polad boru istehsalı) və "Qazelli" (parfüm istehsalı) şirkətləri də var. Belarusun 3, Qazaxıstanın 3 və Rusiyanın 6 müəssisəsi mükafata layiq görülüb.

Azərbaycanın iki şirkətinin belə yüksək mükafata layiq görülməsi ölkəmizdə aparılan iqtisadi siyasətin nəticəsidir.

Bundan əlavə, MDB iştirakçı dövlətlərinin 10-dan artıq müəssisəsi diploma layiq görülüb. Mükafat və diplom alan müəssisələr 3 il ərzində öz məhsullarının üzərində MDB-nin mükafatı emblemini göstərmək hüququna malikdir.

Keyfiyyətli məhsul və xidmət sahəsində əldə edilmiş uğurlara görə verilən bu mükafat MDB-nin ən nüfuzlu mükafatı hesab olunur və bu sahədə uğur qazanan müəssisələrə verilir. Məqsəd MDB iştirakçısı olan ölkələrdə yüksək keyfiyyətli, rəqabətədavamlı məhsul istehsalının və xidmətlərin stimullaşdırılmasıdır.

Mərasimdə MDB iştirakçı dövlətlərinin təşkilat yanında daimi nümayəndələri, o cümlədən Azərbaycanın Belarusdakı səfiri Lətif Qəndilov, MDB İcraiyyə Komitəsinin sədri Sergey Lebedev və mükafata layiq görülən müəssisələrin nümayəndələri iştirak ediblər.

# Özbəkistan portalı: TANAP Azərbaycanın iqtisadi göstəricilərini möhkəmləndirəcək

Daşkənddəki kun.uz portalında "TANAP Azərbaycanın iqtisadi göstəricilərini möhkəmləndirəcək" sərlövhəli məqalə yerləşdirilib.



KUN.UZ Все Узбекистан Мир Общество Спорт

Perfectum «2000» tarif/тариф Kirish qo'ng'iroqlari / Входящие звонки - 0 so'm SMS Mb

TANAP укрепит показатели роста экономики Азербайджана - ПРОГНОЗ

Экономика 09:52 / 17.06.2018 218

Российское рейтинговое агентство АКРА ожидает, что в 2018 году реальный рост экономики Азербайджана составит 1,5-1,8 процента.

Об этом Trend сказал заместитель директора Группы исследований и прогнозирования АКРА Жаннур Ашигали, передает Day.Az.

Уже в 2019 году, отметил Ашигали, реальный рост экономики страны ускорится до 2-2,5 процента. Прогнозы АКРА на этот год соответствуют прогнозам правительства Азербайджана, которое также ожидает реальный рост ВВП на 1,5 процента. На 2019 год правительство прогнозирует рост экономики на четыре процента.

Фото: TANAP

Согласно данным агентства, при этом потребительская инфляция в этот период будет находиться в пределах 6-6,5 процента с тенденцией замедления к концу периода.

Что касается факторов, которые могут поддержать рост экономики страны, то, как отметил эксперт агентства, Трансанатолийский трубопровод (TANAP), являющийся частью "Южного газового коридора", который предусматривает поставки газа с азербайджанского месторождения "Шах Дениз 2" на рынки Европы, укрепит показатели роста экономики страны, но не изменит общую картину экономического развития.

Məqalədə Rusiyanın AKRA Reytinq Agentliyinə istinadən bildirilir ki, 2018-ci ildə Azərbaycan iqtisadiyyatının güclənməsi 1-1,8 faiz təşkil edəcək. 2019-cu ildə isə ölkə iqtisadiyyatı 2-2,5 faiz yüksələcək. Azərbaycan hökuməti gələn il bu rəqəmin 4 faiz olacağını proqnozlaşdırır.

Qeyd olunur ki, TANAP layihəsi Azərbaycanın "Şahdəniz 2" yatağından qazı Avropaya nəql edəcək. Bu isə ölkə iqtisadiyyatına böyük fayda verəcək.

# Elektrik enerjisi, qaz və buxar istehsalı sektorunda 808 milyon manatlıq məhsul istehsal edilib



Yanvar-may aylarında sənayenin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 808,5 milyon manat dəyərində məhsul istehsal olunub və xidmətlər göstərilib.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 3 faiz artıb. Sənaye məhsulunun 4,2 faizi bu sektorda istehsal edilib.

Beş ayda su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların həcmi isə 0,1 faiz artaraq 121,9 milyon manat təşkil edib. Sənaye məhsulunun 0,6 faizi həmin sektorda istehsal olunub.

# Yanvar-aprel aylarında Azərbaycanın xarici ticarət dövriyyəsi 9318,8 milyon dollar olub

Yanvar-aprel aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 153 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib, 94 ölkəyə məhsul ixrac edilib, 144 ölkədən idxal olunub.

Dövlət Statistika Komitəsindən bildiriblər ki, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla yanvar-aprel aylarında xarici ticarət dövriyyəsi 9318,8 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 6292,7 milyon dollar, idxalın dəyəri 3026,1 milyon dollar olub, nəticədə 3266,6 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb. Ötən ilin yanvar-aprel ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 32,8 faiz, real ifadədə isə 3,3 faiz, o cümlədən ixrac 2,2 faiz, idxal 5,7 faiz artıb.

Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, ixracın 24,7 faizini İtaliyaya, 9,2 faizini İsrailə, 7,4 faizini Türkiyəyə, 5,5 faizini İndoneziyaya, hər biri 4,9 faiz olmaqla Tayvan (Çinin əyaləti) və Almaniyaya, 4,4 faizini Çexiyaya, 3,7 faizini Kanadaya, hər biri 3,2 faiz olmaqla Gürcüstan və İspaniyaya, 3,0 faizini Avstriyaya, 2,9 faizini Portuqaliyaya, 2,8 faizini Rusiyaya, hər biri 2,5 faiz olmaqla Ukrayna və Hindistana, qalan 15,2 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil edib.

Ölkəmizə idxal olunmuş məhsulların ümumi dəyərinin 17,4 faizi Rusiya, 15,5 faizi Türkiyə, 10,1 faizi Çin, 7,8 faizi Almaniya, 4,7 faizi ABŞ, 4 faizi Ukrayna, 3,4 faizi İtaliya, 3,1 faizi Belarus, 2,9 faizi İran, 2,3 faizi Birləşmiş Krallıq, 28,8 faizi isə digər ölkələr ilə aparılmış idxal əməliyyatlarının payına düşüb.

# Beş ayda ümumi daxili məhsul 1,1 faiz artıb

Yanvar-may aylarında Azərbaycanın ümumi daxili məhsulu əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,1 faiz artaraq 29294,0 milyon manata çatıb.



Dövlət Statistika Komitəsindən bildiriblər ki, bu dövrdə tikinti sektoru istisna olmaqla, iqtisadiyyatın bütün sahələrində istehsalın artımı müşahidə edilib. Nəqliyyat və anbar təsərrüfatı sahələrində əlavə dəyər istehsalı 8,9 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində 8,6 faiz, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində 6,8 faiz, informasiya və rabitə sahələrində 6,3 faiz, ticarət, nəqliyyat vasitələrinin təmiri sahələrində 2,4 faiz, digər xidmət sahələrində və həmçinin sənayedə 0,9 faiz artıb, tikintidə isə 11,2 faiz azalıb.

ÜDM istehsalının 48,8 faizi sənayedə, 9,9 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri sahələrində, 6,7 faizi tikintidə, 6,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,6 faizi informasiya və rabitə sahələrində, 13,8 faizi digər sahələrdə istehsal edilib, məhsula və idxala xalis vergilər isə ÜDM-in 7,0 faizini təşkil edib.

Əhalinin hər nəfərinə düşən ÜDM 2991,1 manata bərabər olub.

# Qeyri-neft sektoruna yatırılan investisiyaların həcmində 39,3 faiz artım olub



2018-ci ilin yanvar-may aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilmiş 5240,8 mln. manat vəsaitin 2887,1 mln. manatı və ya 55,1 faizi qeyri-neft sektoruna sərf edilib və bu sektorda investisiyaların həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 39,3 faiz artıb.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, ümumi sərmayənin 72,5 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilib. İstifadə olunmuş vəsaitin 73,1 faizi məhsul istehsalı obyektlərinin, 20,8 faizi xidmət sahələri üzrə obyektlərin, 6,1 faizi isə ümumi sahəsi 640,8 min kvadratmetr olan yaşayış evlərinin tikintisinin payına düşüb.

# Əsas kapitala yönəldilmiş sərmayədə müəssisələrin vəsaitləri 53,9 faiz təşkil edib



2018-ci ilin ilk 5 ayında əsas kapitala yönəldilmiş sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 53,9 faiz, bank kreditləri 15,7 faiz, büdcə vəsaitləri 23,6 faiz, əhalinin şəxsi vəsaitləri 5,4 faiz, büdcədənkənar fondların vəsaitləri 0,8 faiz, digər vəsaitlər isə 0,6 faiz təşkil edib.

Dövlət Statistika Komitəsindən bildirilib ki, daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsait ümumi sərmayənin 53,7 faizi qədər olub.

# "Azərbaycanda sığorta: Yeni Perspektivlər" adlı konfrans keçirilir



İyunun 20-də başlanan və iki gün davam edəcək konfransda sığorta bazarının qarşılaşdığı tendensiyalar və problemlər müzakirə edilməkdədir.
Azərbaycan Sığortaçılar Assosiasiyasından bildirilib ki, möhkəmlənmə, dinamik temp, yeni icbari sığorta məhsulları, islahatların təşviqi və innovasiya axtarışı bazarın qarşılaşdığı tendensiyalardır.
Sığorta sektorunda hələ də inkişafı tələb olunan sahələr olsa da, praktiki yanaşma, hadisələrin inkişafı, investisiyalar və bunları həll etməyə dair araşdırmalar üçün çox böyük potensial vardır.
Tədbir ilə yerli bazarın inkişafını artırmaq və biznes əməkdaşlığını gücləndirmək planlaşdırılır.

**"Azərbaycanda cəmi maliyyə sektorunun aktivlərində sığorta sektorunun cəmi aktivlərinin xüsusi çəkisi 2%-i keçə bilmir"**

Bunu "Azərbaycanda sığorta: yeni perspektivlər" adlı konfransda Maliyyə Bazarlarına Nəzarət Palatasının Baş İcraçı direktoru İbrahim Alışov öz çıxışında bildirib.
"Azərbaycanda iqtisadi aktivliyin artması ilə bərabər, sığortada da canlanma müşahidə olunur. Amma bu canlanma yetərli deyil. Təəssüf ki, ümumi maliyyə aktivlərində sığorta sektorunun cəmi aktivlərinin xüsusi çəkisi 2%-i keçə bilmir. Bu, çox kiçikdir. Sığorta sektorunun cəmi aktivləri 1 milyard 114 milyon manata bərabərdir. Maliyyə aktivlərində sığorta sektorunun aktivlərinin artırılması üçün çox işlər görülməlidir",- İ.Alışov bildirib.
İbrahim Alışov qeyd edib ki, 2020-ci ilə qədər sığorta yığımlarının qeyri-neft ümumi daxili məhsulunda xüsusi çəkisinin 1,8%-ə çatdırılması hədəflənir. Bunun üçün 1600 yeni iş yerinin açılmasına nail olmaq tələb olunur.
Palatanın İcraçı direktoru qeyd edib ki, 2018-ci ilin ilk 5 ayında 350,8 milyon manat sığorta haqları toplanıb, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 46% çoxdur. Eyni zamanda, toplanmış cəmi 350 milyon manat sığorta haqlarının 158 milyon manatı həyat sığortasının, o cümlədən 113 milyon manatı həyatın yaşam sığortasının payına düşüb.
İbrahim Alışov əlavə edib ki, ötən dövrdə hüquqi çərçivə formalaşdırılıb, yeni sığorta məhsulları yaradılıb, icbari avtomobil sığortasında bütün mərhələlər elektronlaşdırılıb:
"Qarşıda görüləcək işlər çoxdur. Mikro sığortanın, müştərək sığortanın, icbari tibbi sığortanın və kənd təsərrüfatı sığortasının tətbiqi nəzərdə tutulur. Riskin bölüşdürülməsini nəzərdə tutan müştərək sığortanın tətbiqi üçün qanunvericiliyə ediləcək dəyişikliklər təklifi hökumətə göndərilib. Kənd təsərrüfatı sığortasının yekun modeli də hökumətə təqdim edilib. Biz 2018-ci ilin sonunadək kənd təsərrüfatı sığortasının tətbiqi istiqamətində işləri başa çatdırmağı hədəfləyirik".
Palatanın İcraçı direktoru Azərbaycanda sığorta məhsullarının az olmasına da təəssüflənir: "Dünya təcrübəsində 300-dən çox sığorta məhsulu olsa da, Azərbaycanda təqdim edilən sığorta məhsullarının sayı 40 civarındadır. Bu, bizi qane edə bilməz".



Konfransda çıxış edən Azərbaycan Sığortaçılar Assosiasiyasının (ASA) sədri Mustafa Abbasbəyli qeyd etdi ki, qəbul edilmiş Strateji Yol Xəritələrinə əsasən, 2 il ərzində Azərbaycanda sığorta bazarı 3 dəfə artırılmalıdır. Bunun üçün mikro sığortanın, yeni icbari sığortaların və kənd təsərrüfatı sığortasının tətbiqinə başlanması nəzərdə tutulur.

**"ƏMLAK SIĞORTASINDA 300 MİLYON MANATADƏK YIĞIMA NAİL OLMAQ OLAR"**

Konfransda **Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə** deyib ki, Azərbaycanda əmlak sığortasına maraq aşağı səviyyədədir. "Əgər Azərbaycanda uçot sistemi təkmilləşdirilsə, bizim hesablamalarımıza görə, əmlak sığortası üzrə əlavə olaraq, 200-300 milyon manat yığıma nail olmaq olar. Qonşu ölkələrdə əvvəllər əmlak sığortası üzrə yığımlar ümumi yığımların 17 faizini, indi isə 20 faizini təşkil edir. Bütün bunlar uçot və statistikanın təkmilləşdirilməsi hesabına olub. Bizim də ən mühüm vəzifəmiz ölkədə uçot sisteminin daha da təkmilləşdirilməsinə nail olmaqdır. Bizim sığorta üzrə yığımlarımız da qonşu ölkələrlə müqayisədə yüksək olmalıdır.
Sığorta şirkətlərini investisiya şirkətləri kimi qiymətləndirməliyik. Sığorta şirkətlərinin investisiya potensialı artırılmalıdır".
Azərbaycanda riskin ötürülməsi sisteminə (təkrarsığorta) alternativ olaraq riskin bölüşdürülməsini nəzərdə tutan müştərək sığortanın tətbiqi nəzərdə tutulur.
Sığorta məhsulunun yaxın vaxtlarda müasir tələblərə cavab verən hüquqi və institusional çərçivəsinin formalaşdırılmasına nail olmaq əsas vəzifələrdən biri kimi qiymətləndirilməlidir.

**Palata vəziyyəti pisləşən sığorta şirkətlərinə daha geniş müdaxilə edə biləcək**

"Sığorta şirkətlərinin maliyyə dayanıqlığını və baş verə biləcək çalxalanmaları nəzərə alaraq, biz sığorta sektorunda da müvəqqəti inzibatçı institutun tətbiqilə bağlı qanunvericiliyə dəyişikliklər layihəsini hökumətə təqdim etmişik. İstəyirik, sığorta şirkətlərində baş verə biləcək prudensial kənarlaşma zamanı nəzarət orqanı müdaxiləsini edə bilsin. Bu, maliyyə bazarının dayanıqlığına öz töhfəsini verəcəkdir", - İ.Alışov bildirib.

# Vergi bəyannamələrinə edilən dəyişikliklər vergi ödəyicilərinə nə vəd edir?!

Bu günlərdə vergilər nazirinin imzaladığı müvafiq əmrə əsasən, bəzi vergi bəyannamələrinə, hesabat və onların əlavələrinin tərtib edilməsi qaydalarına dəyişikliklər edilib.
Nazirliyin Media və Kommunikasiya Mərkəzindən bildirilib ki, bu barədə Vergilər Nazirliyinin Vergi Risklərinin Təhlili və Nəzarət Departamentinin Bəyannamələr İdarəsinin direktoru Vüqar Əliyev açıqlama verib.
Onun sözlərinə görə, son dövrlərdə aparılan əhatəli və dərin təhlillərin nəticələri və vergi ödəyicilərindən daxil olan müraciətlər nəzərə alınaraq, Vergilər Nazirliyi tərəfindən bəzi bəyannamə formalarının və onların əlavələrinin dəyişdirilməsinə qərar verilib. Nəticədə, dörd vergi bəyannaməsinə və əlavələrinə, eləcə də bir hesabat formasına müvafiq dəyişikliklər edilib. Dəyişikliklər həm bəyannamələrin özünü, həm də onun əlavələrini əhatə edir. "Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi"nə, "Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi"nə, "Əlavə dəyər vergisinin bəyannaməsi"nin 3, 4, 5 nömrəli əlavələrinə, "Əmlak vergisinin bəyannaməsi"nə və onun Əlavəsinə, "Dövlət rüsumu tutulması haqqında hesabat"ın formasına, onun Əlavəsinə və tərtib edilməsi qaydalarına müvafiq dəyişikliklər olunub.
V.Əliyev bildirib ki, əvvəlki qaydalara əsasən müvəqqəti əmək qabiliyyətinin itirilməsinə görə işçiyə ödənilən vəsaitlərin bəyannamələrdə əks etdirilməsində problemlər yaranırdı. Belə ki, dövlət sosial müdafiə orqanları tərəfindən müvəqqəti əmək qabiliyyətinin itirilməsinə görə işçiyə ödənilən vəsaitdən tutulan gəlir vergiləri büdcəyə ödənilir, lakin həmin şəxslər digər vergi ödəyicilərinin işçiləri olduğuna görə, hesablamaların şəxsi vərəqələrdə əks olunması məsələlərində çətinlik yaranırdı. Yəni, həmin vəsaitlərin hesabatda hansı qaydada əks etdirilməsi qaranlıq qalırdı. Burada dürüstlük, hesabatlılıq, konkretlik yox idi. Eyni zamanda, həmin sahədə süni olaraq artıq ödəmələr yaranırdı. Vergilər Nazirliyi sosial müdafiə orqanları tərəfindən daxil olan təklif və müraciətləri nəzərə alaraq, həmin sahə üzrə yaranmış uyğunsuzluqları aradan qaldırmaq üçün muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsinə yeni sətirlərin əlavə edilməsini qərara alıb. Beləliklə, dəyişikliklərdən sonra müvəqqəti əmək qabiliyyətinin itirilməsinə görə işçiyə ödənilən gəlirdən tutulan verginin bəyannamələrdə əks etdirilməsi mümkün olacaq.
Vurğulanıb ki, digər bir mühüm dəyişiklik "Əlavə dəyər vergisinin bəyannaməsi" və onun 3,4 və 5 nömrəli əlavələrinin formalarının tərtibi ilə bağlıdır. Üç nömrəli Əlavəyə edilmiş dəyişikliklərə əsasən, ƏDV tutulan vergitutma obyektləri, ƏDV tutulan əməliyyat hesab edilməyən dövriyyələrlə bağlı ortaya çıxan uyğunsuzluqlar aradan qaldırılıb. Dörd nömrəli Əlavəyə dəyişikliklə "0" dərəcə ilə vergiyə cəlb edilən əməliyyatlar üzrə konkretlik təmin olunub. Xüsusi iqtisadi zonalarda aparılan əməliyyatların və Azərbaycanın qoşulduğu bir sıra beynəlxalq müqavilələr üzrə əməliyyatların "0" dərəcə ilə vergiyə cəlb olunması üzrə məsələlər sənədlərdə öz həllini tapıb, həmin istiqamətlər üzrə bəyannamələrin əlavə formalarında müvafiq sətir yaradılıb.
Ümumilikdə, hər 3 əlavə formasına edilmiş dəyişikliklər nəticəsində vergi ödəyiciləri üçün öz əməliyyatlarını dürüst formada əks etdirməyə imkan yaradılacaq. Bu həm vergi orqanı, həm də ödəyici üçün mühüm əhəmiyyət daşıyır. Vergi orqanı əməliyyatların qiymətləndirilməsi zamanı sahibkarların dövriyyələrinin, əsasən də azadolma və güzəştlərlə bağlı hissəsinin qanunvericiliyə uyğunluğunu və əsaslılığını asanlıqla müəyyən edə biləcək və son nəticədə bəyannamədə əks etdirilmiş dövriyyə ilə bağlı qarşılıqlı yazışmaların azalmasında əhəmiyyətli rol oynayacaq.






# Ölkə üzrə bu günədək 451 ton yaş barama tədarük olunub



“Azəripək” MMC tərəfindən respublikanın baramaçılıqla məşğul olan rayonlarında barama tədarükü mütəşəkkil qaydada davam etdirilir. Bu günədək kümçülərdən 451 ton yaş barama qəbul olunub.
MMC-dən AZƏRTAC-ın bölgə müxbirinə bildiriblər ki, barama tədarükündə Zərdab rayonu öndə gedir. Rayonun kümçüləri indiyədək müəssisəyə 53 ton 764 kiloqram yaş barama təhvil veriblər. Zaqatala rayonunda bu günədək 40 ton 862 kiloqram, Füzuli rayonunda 37 ton 569 kiloqram, Ağcabədidə 37 ton 127 kiloqram, Şəkidə isə 32 ton 193 kiloqram yaş barama tədarük olunub.
Qeyd edək ki, 2018-ci ildə Çindən müqavilə əsasında 13 min qutu yüksəkkeyfiyyətli hibrid ipəkqurdu sənaye toxumları (qrena) alınıb və iqlim şəraiti nəzərə alınaraq iki mərhələdə ölkəmizə gətirilib. Toxumlar aprelin 17-də və 24-də Kənd Təsərrüfatı Nazirliyinin Qax Damazlıq İpəkçilik Stansiyasında inkubasiyaya qoyulub. Toxumların inkubasiyası nəticəsində əldə olunan ipəkqurdlarının bir hissəsi aprelin 27-dən 29-dək bölgü əsasında Aran bölgəsindən olan 22 rayonun kümçülərinə, mayın əvvəllərində isə dağlıq və dağətəyi zonalarda yerləşən 17 rayonun kümçülərinə əvəzi ödənilmədən paylanılıb.
Cari ildə Azərbaycanda yaş barama istehsalının 450-500 tona çatdırılması hədəf olaraq qarşıya qoyulub. Bu, ötən illə müqayisədə iki dəfə çoxdur.

# Cari ilin beş ayında əhali ərzaq məhsullarına 7 milyard manat xərcləyib

Yanvar-may aylarında pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri əvvəlki ilin eyni dövrünün səviyyəsini müqayisəli qiymətlərlə 2,4 faiz üstələyərək 13,7 milyard manata bərabər olub.
Dövlət Statistika Komitəsindən bildiriblər ki, ticarət dövriyyəsinin 6,9 milyard manatını ərzaq məhsulları, içkilər və tütün məmulatları, 6,8 milyard manatını qeyri-ərzaq məhsulları təşkil edib və satılmış məhsulların dəyəri 2017-ci ilin yanvar-may aylarının göstəricilərini real ifadədə müvafiq olaraq 1,8 faiz və 3,0 faiz üstələyib.
Hesabat dövründə alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 45,2 faizi ərzaq məhsullarının, 4,9 faizi içkilər və tütün məmulatlarının, 18,0 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6,2 faizi elektrik malları və mebellərin, 5,8 faizi avtomobil yanacağının, 1,3 faizi əczaçılıq və tibbi malların, 0,7 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 17,9 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunub.




Hesabat dövründə yanvar-may aylarında istehlak məhsullarının 13,9%-i ticarət müəssisələri, 52,3%-i fərdi sahibkarlar tərəfindən, 33,8 faizi isə bazar və yarmarkalarda satılıb. 2017-ci ilin eyni dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 23,3% artıb, fərdi sahibkarlar üzrə 0,1%, bazarlarda 0,5% azalıb. Əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 279,7 manat və ya ötən ilin yanvar-may aylarının göstəricisindən 13,5 manat çox olub. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla hər ay 140,1 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 139,6 manatlıq qeyri-ərzaq məhsulları alıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” layihəsi çərçivəsində çap olunub.**

# Sağlamlığa “sağlam” addım

Xarici ölkələrin əksəriyyətində artıq çoxdandır ki, tətbiq olunan icbari tibbi sığortanın ölkəmizdə də həyata keçirilməsi məqsədilə 1999-cu ildə “Tibbi sığorta haqqında” Qanun qəbul olunub. 2008-ci ildə qanuna müəyyən əlavə və dəyişikliklər edilib və son vaxtlarda onun tətbiqi istiqamətində daha aktiv addımlar atıldığının şahidi oluruq. İcbari və könüllü şəkildə həyata keçirilən icbari tibbi sığorta dövlət sosial sığortasının tərkib hissəsi olmaqla bərabər, həm də əhalinin uyğun həcmdə tibbi və dərman yardımı almasına təminat verən sığorta növüdür.
Dünya səhiyyəsində geniş yayılmış tibbi xidmətlər modeli sayılan icbari tibbi sığorta insanlar xəstələnmədiyi halda belə, müəyyən fondlara vəsait keçirir. Layihənin əsas məqsədi səhiyyənin maliyyələşdirilməsini təkmilləşdirməklə əhaliyə daha etibarlı, keyfiyyətli və səmərəli tibbi xidmətlər göstərilməsini təmin etməkdir. İcbari tibbi sığorta vasitəsilə xəstəliyi olan insanlar müalicə ala bilir və beləliklə də, insanlar bir-birlərinə qarşılıqlı yardım etmiş olurlar.
Ölkəmizdə isə icbari tibbi sığortadan nəinki vətəndaşlar, həmçinin müvəqqəti və ya daimi yaşamaq üçün icazəsi olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər də faydalana biləcəklər. İcbari tibbi sığorta tibbi xidmətlərin keyfiyyətinə də nəzarət etməklə həkimlərin məsuliyyətinin artırılmasına, insanlara səhiyyə xidmətlərin çatımlılığının təmin edilməsinə şərait yaradır. Bu sığorta növü ilə, eyni zamanda, həkimlərin xəstələrə yazdığı müalicəyə üçüncü tərəf də nəzarət etmiş olur. Belə ki, həkimin yazdığı müalicə və dərmanlar barədə məlumat icbari tibbi sığorta agentliyinə də çatdırılır.
İcbari tibbi sığorta vasitəsilə tibb müəssisəsinə gedən şəxs tibbi sığorta kartını təqdim etməklə həmin paketə daxil olan bütün xidmətləri pulsuz əldə edir. İcbari tibbi sığortaya ilkin səhiyyə, ambulator, laborator, stasionar müayinə-müalicə təminatı, dəyəri yüksək, həyati vacib əməliyyatlar ilə əhatə olunan 1800-dən çox xidmət daxildir.
Bu sığorta növü, əsasən, müvafiq fonda müəyyən sığorta haqqı köçürülməklə maliyyələşir. Konkret olaraq, çalışan insanlar öz maaşlarından, şirkətlər işçilərinin adına, müvafiq dövlət qurumları isə çalışmayan şəxslər - təqaüdçülər, uşaqlar və işsizlər üçün fonda ödənişlər etməlidir. Təhlilçilər bu sistemi, adətən, pensiya fondu ilə müqayisə edirlər. İcbari tibbi sığorta haqqının birbaşa olaraq tibb işçilərinə təqdim edilməsi isə qadağandır.
İcbari tibbi sığortanın əhəmiyyəti işəgötürən müəssisənin icbari tibbi sığorta ayırmalarının sərfəli xərclənməsində, işçinin çox xəstələnməməsində, işçi xəstələndikdə də onun çox qısa vaxt ərzində müalicə olunması və işə geri qayıtmasında maraqlı olmasıdır. İcbari tibbi sığorta agentliyi xəstə olan şəxsin əlavə müayinələrə cəlb olunmamasına, onun reseptində əlavə dərmanların yazılmamasına, müalicə müddətinin həddindən artıq uzadılmamasına, bir sözlə, əlavə vəsaitlərin xərclənməməsinə cəhd göstərir. Səhiyyə müəssisəsi isə keyfiyyətli tibbi xidmət göstərməklə yenidən müqavilə bağlanmasına çalışır. Nəticədə isə, bu sistemin tətbiqində tərəflərin hər biri maraqlı olaraq fayda götürməyə səy göstərir.
İcbari tibbi sığorta sistemindən, həmçinin əhali və müalicəyə ehtiyacı olan şəxslər də yararlanmaq imkanı əldə edirlər. Az vəsait ödəməklə keyfiyyətli xidmət alan hər hansı şəxsin lazımsız müayinələrdən keçməsinə də ehtiyac qalmır, ona əlavə dərmanlar yazılmır.
Bu xidmətin tətbiqi səhiyyə müəssisələri ilə pasiyentlər arasında “xidmət haqqı” münasibətlərini də tənzimləyir, tibb müəssisələri yalnızca göstərdikləri xidmətlər müqabilində sığorta şirkətləri tərəfindən ödənilən haqlarını alırlar.
İcbari tibbi sığortanın digər əhəmiyyəti isə ondan ibarətdir ki, bunun sayəsində Azərbaycanın sığorta bazarında sığorta haqları artacaq, sığorta bazarının həcmi böyüyəcək, bütün bunlar isə sığorta şirkətlərinin peşəkarlığına da təsir göstərəcək və yeni işçi qüvvəsinə tələbat yaradacaqdır. İcbari tibbi sığortanın tətbiqi, həmçinin sığorta şirkətlərinin də gəlirlərinə təsir göstərəcək, onların inkişafına səbəb olacaqdır.
İcbari tibbi sığorta sayəsində pasiyentlər yaxşı xidmət göstərməyən tibb müəssisələrini daha yaxşı tanıyacaq və həmin tibb müəssisələrinə gələn pasiyentlərin sayı azalacaq. Bu da öz növbəsində əhalinin sağlamlıq durumunun yaxşılaşmasına da ciddi təsir göstərəcək.
Azərbaycanda icbari tibbi sığorta sistemi üç mənbədən maliyyələşdiriləcək: dövlət büdcəsi, işəgötürənlər və işçilərin ödənişləri. Dövlət əhalinin müəyyən qisminin icbari tibbi sığortasını təmin edəcəkdir ki, bu qruplara uşaqlar, pensiyaçılar, əlillər və işləməyən şəxslər daxildir. İşləyən şəxslər isə özlərini, hətta ailə üzvlərini də tibbi sığortalaya biləcəklər.
İcbari tibbi sığorta müxtəlif paketlər şəklində tətbiq edilir: qızıl, gümüş və adi. Bütün paketlərdə minimum tibbi xidmətlər əhatə olunur. Bahalı xidmətlər gümüş paketə, qızıl paketə isə bütün tibbi xidmətlər daxildir. Qızıl paketdən yalnız müqavilə bağlayan, işləyən vətəndaşın özü deyil, onun ailə üzvləri də faydalana bilərlər. İcbari tibbi sığortanın tətbiqi zamanı hansı paketlərdən istifadə ediləcəyi



isə vətəndaşın istəyindən, eyni zamanda, onun adından müqavilə bağlayan icbari tibbi sığorta şirkətinin tibb müəssisəsi ilə bağlayacağı müqavilələrdən, icbari tibbi sığorta xidmətinin göstəriləcəyi şərtlərdən və ayırmalardan asılı olacaq.
İcbari tibbi sığortanın əhəmiyyətini nəzərə alaraq “Paşa Sığorta” Açıq Səhmdar Cəmiyyəti də iyun ayının 8-də Azərbaycanda ilk dəfə olaraq beynəlxalq tibbi sığorta məhsulunu təqdim etmişdir. Öncə qeyd edək ki, 2006-cı ildən fəaliyyət göstərən “PAŞA Sığorta” ASC Azərbaycanın sığorta xidmətləri bazarında tanınmış liderlərdən biridir. Hal-hazırda şirkət 300 000-ə yaxın korporativ və fərdi müştərisinə 36 növ könüllü və icbari sığorta üzrə xidmət göstərir. Kapitalın bu cür yüksək səviyyəsi “PAŞA Sığorta” şirkətinə öz sığorta öhdəliklərini əminliklə yerinə yetirməyə, zəruri maliyyə imkanı və onun ödəmə qabiliyyətliliyinə zəmanət verir.
2016-cı ildə A.M. Best Qlobal Sığorta Kredit Reytinqi və İnformasiya Xidmətləri Agentliyi “PAŞA Sığorta ASC”-nin kredit reytinqlərini təsdiqləyib. Agentlik PAŞA Sığorta şirkətinin Maliyyə Dayanıqlığı Reytinqini “B+”, Uzunmüddətli Kredit Reytinqi isə “bbb-” olaraq dəyərləndirib. Reytinqlər PAŞA Sığortanın yüksək əməliyyat göstəriciləri, güclü kapital bazası və təkrarsığorta təminatına malik olmasını əks etdirir. “PAŞA Sığorta” şirkəti fəaliyyətini İSO 9001:2015 beynəlxalq standartında təsvir olunmuş Keyfiyyətin İdarə Olunması Sisteminə (Quality Management System) müvafiq olaraq həyata keçirir.
“Bütün dünyanı əhatə edəcək yeni məhsul” başlığı altında təqdim edilən beynəlxalq tibbi sığorta Azərbaycan sığorta bazarı üçün yenilik olmaqla bərabər, maksimum dərəcədə geniş sığorta təminatı verən bir məhsuldur.
Daim müştəri istəklərini fəaliyyətinin əsas meyarı tutan “PAŞA Sığorta” xarici ölkələrin xəstəxanalarında keçərli beynəlxalq tibbi sığorta məhsulunu 2 növdə təklif edir – “Sərhədsiz Səhhət” və “Tibbi Sığorta: Acıbadem”. Bu məhsulların bazara təqdim olunma ideyası da məhz müştərilərdən daxil olan çoxsaylı sorğulara əsasən yaranmışdır. Hər bir sığorta məhsulu iki paketdən ibarətdir. “Sərhədsiz Səhhət” paketləri bütün dünya üzrə ərazilərə bölünür. “Sərhədsiz Səhhət” dünyanın dörd bir yanında keçərli beynəlxalq tibbi sığorta məhsuludur və hər bir ərazi bölgüsü daxilində “Advantage” və “Advantage Plus” tibbi sığorta paketlərini seçmək imkanı verir. Birinci ərazi bütün dünyanı, ikinci ərazi Şimali Amerika istisna olmaqla, bütün dünyanı, üçüncü ərazi Şimali Amerika, Çin, Böyük Britaniya, Honq Konq, Sinqapur və İsveçrə istisna olmaqla, bütün dünyanı, dördüncü ərazi isə Şimali Amerika, Çin, Böyük Britaniya, Honq Konq, Sinqapur, İsveçrə, Avstraliya, Braziliya, Çili, Meksika və Tayland istisna olmaqla bütün dünyanı əhatə edir.
İkinci növdə təqdim olunan “Tibbi Sığorta: Acıbadem” sığorta məhsulu isə 2 paketdən ibarətdir: “Crystal” və “Diamond”. “Crystal” tibbi sığorta paketi maksimum 80 000 ABŞ dolları, “Diamond” tibbi sığorta paketi isə maksimum 500 000 ABŞ dolları sığorta təminatına malikdir.
Qeyd olunan məhsulların təminatına xarici xəstəxanalarda check-up müayinə, hamiləlik, xroniki və onkoloji xəstəliklər kimi mühüm xidmətlər daxildir.
Bu sığorta məhsulu üzrə partnyor şirkətlər olaraq isə beynəlxalq sağlamlıq sığortası üzrə böyük təcrübəyə malik olan “Cross Border Health Partners” və “Global Benefits Group” seçilmişdir.
“PAŞA Sığorta” ASC tərəfindən təqdim olunan bu sığorta paketlərinin qiymətləri isə müraciət edən şəxsin yaşına, sağlamlıq tarixçəsinə görə dəyişir. Həmçinin, fərdi, qrup, korporativ şəkildə müraciət edən müştərilər də bu məhsulları xüsusi şərtlərlə əldə edə bilərlər.

**Mətanət Hüseynova**

21-27 iyun 2018-ci il

# AZƏRBAYCAN ORDUSU

"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

Azərbaycan Xalq Cümhuriyyəti Ordusu - Şimali Azərbaycan müstəqillik qazandıqdan sonra Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin yaratdığı milli ordu. Azərbaycan Xalq Cümhuriyyəti silahlı qüvvələrinin təşkilinə Cümhuriyyətin elan edildiyi gündən başlanmışdı.

Yeni yaradılacaq ordunun əsasını Müsəlman korpusu təşkil edirdi. Ordu quruculuğuna rəhbərlik üçün ilk hökumət kabinəsinin tərkibində Hərbi Nazirlik də nəzərdə tutulmuş və Xosrov Paşa bəy Sultanov hərbi nazir təsdiq edilmişdi. Lakin bu kabinənin buraxılması ilə hərbi nazir vəzifəsi də ləğv edilmiş və Azərbaycanda ordu quruculuğu prosesinə rəhbərlik hökumətin qərarı ilə Qafqaz İslam Ordusunun komandanı Nuru paşaya həvalə olunmuşdu. Hökumət strukturunda isə Qafqaz İslam Ordusu komandanlığı ilə əlaqələri nizamlayacaq hərbi işlər üzrə baş müvəkkil vəzifəsi təsis olunmuş və İsmayıl xan Ziyadxanov bu vəzifəyə təsdiq edilmişdi.

1918-ci il iyunun 26-da hökumətin qərarı ilə Müsəlman korpusu Əlahiddə Azərbaycan korpusu adlandırıldı və onun ştat cədvəlində qismən dəyişiklik edildi. General-leytenant Əliağa Şıxlinski korpusun komandiri kimi vəzifəsini yenə də davam etdirdi.

Ordu quruculuğu sahəsində irəliləyişə nail olmaq üçün hökumət bir sıra tədbirlər həyata keçirdi. İyun ayının əvvəllərindən Gəncə Hərbi Məktəbi fəaliyyətə başladı. Hökumətin qərarı ilə çağırışçılar üçün yaş senzi 19 yaşa endirildi. Sonra 1894-95-ci illərdə doğulmuş və islam dininə mənsub gənclərin xidmətə çağırılması barədə qərar qəbul edildi. Çağırış - səfərbərlik işinin təşkili, bu sahədə mövcud olan əyintilərin qarşısının alınması üçün Daxili İşlər Nazirliyinin sərəncamına 5 min rubl vəsait ayrıldı. Hökumətin qərarı ilə Yelizavetpol əxzi-əsgər (əsgərliyə çağırış və ya hərbi çağırış) idarəsi Azərbaycan əxzi-əsgər idarəsi adlandırıldı və bütün ölkə üzrə çağırış işinin təşkili bu idarədə cəmləşdirildi.

Ordu quruculuğunun ilkin mərhələsi S.Şaumyanın başçılıq etdiyi Bakı Komissarlığı daşnak-bolşevik hərbi qüvvələrinin Gəncə istiqamətində fəal döyüş əməliyyatlarına başlaması ilə bir vaxta düşdüyündən ciddi çətinliklərlə qarşılaşdı. Çünki yeni qoşun hissələrinin formalaşdırılması, çağırış və təchizat işlərinin yaxşılaşdırılması gərgin döyüşlərin aparılması ilə eyni vaxta düşmüşdü. Buna görə də Nuru paşanın başçılıq etdiyi türk hərbi qüvvələri Azərbaycanı tərk edəndə Cümhuriyyət ordusu zəruri döyüş hazırlığı səviyyəsinə malik deyildi.

Ordu quruculuğunu gücləndirmək məqsədilə 1918-ci il noyabrın 1-də Hərbi Nazirliyin yenidən bərpa edilməsi qərara alındı. Hökumətin qarşısında duran tarixi vəzifələrin həllində bu struktura çox böyük əhəmiyyət verildiyi üçün ilk vaxtlar ona rəhbərliyi Nazirlər Şurasının sədri F.x.Xoyski öz üzərinə götürdü. Nazir müavini isə tam artilleriya generalı Səməd bəy Mehmandarov təyin edildi və nazirliyin formalaşdırılması ona tapşırıldı. Ordu quruculuğu prosesinə rəhbərlik edəcək mərkəzi hərbi idarəetmə orqanlarının təşkilinə başlandı. Qısa müddət ərzində Hərbi Nazirliyin aparatı yaradıldı. Noyabrın 15-də ordunun Ümumi qərargahının təsis edilməsi barədə S.Mehmandarovun müvafiq əmri imzalandı.

Mudros barışığının (1918) şərtlərinə görə, müttəfiq dövlətlər adından Bakıya göndərilən ingilis qüvvələrinin komandanı general Tomson hələ Azərbaycana gəlməmiş türk qoşunları kimi, Azərbaycan qoşunlarının da 1918-ci il noyabrın 17-dək Bakıdan çıxarılmasını tələb etdi. Çünki Tomson, öz ölkəsinin xarici siyasətinə uyğun olaraq, Bakını istər iqtisadi, istərsə də hərbi-siyasi baxımdan mühüm strateji mərkəz sayırdı və ona nəzarəti tamamilə öz əlində saxlamaq istəyirdi. O, müstəqil Azərbaycan hökumətini tanımaq istəmədiyi kimi, onun nəzarəti altında olan hərbi qüvvələrə də etibar etmirdi. Ona görə 1918-ci il noyabrın 22-də Hərbi Nazirlik Gəncəyə köçürüldü. İngilis komandanlığı nazirliyin Bakıdan kənarda fəaliyyət göstərməsinə etiraz etmirdi.



Hərbi nazir Xosrov Paşa bəy Sultanov (1918-ci il)



General-leytenant Əliağa Şıxlinski



Səməd bəy Mehmandarov



1918-ci il noyabrın 27-dən dekabrın 3-dək Gəncə və Ağdam ətrafındakı hərbi hissələrə səfər edən S.Mehmandarov şahidi olduğu nöqsanları ümumiləşdirərək, xüsusi əmrlə hissə komandirlərindən onların aradan qaldırılmasını tələb etdi.

1918-ci ilin sonu-1919-cu ilin əvvəllərində Hərbi Nazirliyin rəhbərliyində və strukturunda qismən dəyişiklik edildi. Nazirlər Şurasının 25 dekabr 1918-ci il tarixli qərarı ilə tam artilleriya generalı Səməd bəy Mehmandarov hərbi nazir, 29 dekabr 1918-ci il tarixli qərarı ilə isə general-leytenant Əliağa Şıxlinski hərbi nazirin müavini təyin edildi.

Ordu quruculuğunda müsbət dəyişikliklər baş verdikcə mövcud idarəetmə strukturları da təkmilləşdirilirdi. Hərbi nazirin 1918-ci il 31 dekabr tarixli 40 saylı əmrilə Ümumi qərargahın tərkibindəki topçu şöbəsinin əsasında Topçu idarəsi yaradıldı.

Bir qədər sonra Ümumi qərargahın tərkibindəki İstehkamat şöbəsi də İstehkamat idarəsinə çevrildi.

Nazirliyin rəhbərliyi hərbi xidmətin təşkilinin hüquqi əsasda nizamlanmasına xüsusi diqqət yetirirdi. Azərbaycan ordusunun qanunvericilik bazasını qısa müddətdə yaratmaq mümkün olmadığı üçün hərbi nazirin 1919-cu ilin əvvəlində imzaladığı əmrlə keçmiş Rusiya imperiyasında 1917-ci il yanvar ayının 1-dək qəbul edilmiş hərbi qanunvericilik aktları, müvəqqəti olaraq, qüvvədə saxlanıldı. Bura hərbi nizamnamələr, döyüş təlimatları, hərbi xidmətin bütün sahələrini tənzimləyən sənədlər, səfərbərlik, hərbi məhkəmə işlərinin aparılması üzrə təlimatlar və s. daxil idi. Lakin bu qanunvericilik aktlarının Azərbaycanın müstəqilliyi, milli orduda xidmətin bu və ya digər tələbləri ilə uyğun gəlməyən cəhətləri ləğv edilir, həmin məqamlar təkmilləşdirilir və ya yenisi ilə əvəz olunurdu. Həmin qanunvericilik aktlarına uyğun olaraq, Rusiya ordusunda tətbiq edilən hərbi rütbələr olduğu kimi, hərbi rütbələrin fərqlənmə nişanları olan poqonlar isə təkmilləşdirilərək Azərbaycan ordusunda istinad edilməyə başlandı. Əsgər heyəti üçün çavuş və baş çavuş rütbələri tətbiq edildi.

Hərbi nazirin 1918-ci il 27 dekabr tarixli 34 saylı əmri ilə hərbi qulluqçular arasında salamlaşmanın Azərbaycan dilində və azərbaycanlıların salamlaşma ənənələrinə uyğun aparılması təmin olundu. Hərbi qulluqçularim geyim formasında milli üsluba uyğun dəyişikliklər edildi. Bununla əlaqədar yaradılan xüsusi komissiyaya general-leytenant Əliağa Şıxlinski sədrlik edirdi. Komissiyanın hazırladığı geyim forması 1919-cu il yanvarın 11-dən rəsmiləşdirildi.

Milli hərbi kadrların hazırlanması üçün tədbirlər həyata keçirildi. 1918-ci il dekabrın 25-də S.Mehmandarov hərbi xidmətə çağırışı yaxşılaşdırmaq məqsədilə xalqa müraciət etdi. Müraciətdə əvvəllər çağırış işində yol verilən nöqsanlara, hissələrdə əsgərlərə qarşı fiziki güc tətbiq edilməsinə, ağır məişət şəraitinə toxunulmaqla bərabər, bu halların aradan qaldırılması üçün qətiyyətli tədbirlərin həyata keçirilməsinə başlandığı da bəyan edilirdi.

1919-cu il yanvarın 10-da Hərbi Nazirlikdə Müvəqqəti Hərbi Şura yaradıldı. Əsasnaməsi və daimi tərkibi təsdiq edilənə qədər Şura hərbi qanunvericilik və hərbi idarəetmə sahəsində mühüm məsələlərin müzakirəsi və müvafiq qərar qəbul edilməsi ilə məşğul olurdu. 1919-cu ilin martında Azərbaycan ordusunun idarəetmə orqanlarında mühüm keyfiyyət dəyişikliyi meydana gəldi. Hərbi nazirin əmri ilə mart ayının 26-da Baş ərkani-hərb (Baş qərargah) təsis edildi və general-leytenant Məmməd bəy Sulkeviç bu orqanın rəisi təyin edildi. Bundan sonra ordu hissələrinin formalaşdırılması daha ahəngdar xarakter aldı. 2-ci Bakı piyada alayının formalaşdırılması sürətləndirildi, 3-cü Şəki süvari alayının təşkili tezliklə başa çatdırıldı.

Azərbaycandakı ingilis qüvvələrinin komandanlığı 1919-cu il aprelin əvvəllərində milli qoşun hissələrinin azsaylı kontingentinin Bakıda da yerləşdirilməsinə icazə verdi. Hərbi nazirin əmri ilə Bakıda yerləşəcək hissə və bölmələr dəqiqləşdirildi. Aprelin 5-də həmin qüvvələr Bakıya daxil oldu və Salyan kazarmalarında yerləşdirildi.

Azərbaycan qoşun hissələrinin Bakıya daxil olması münasibətilə hərbi nazir S.Mehmandarov da paytaxta gəldi. Şəhər əhalisi Azərbaycan ordusunun qoşun hissələrini çox böyük ruh yüksəkliyi və təntənə ilə qarşıladı.

1919-cu ilin yayında və payızında Azərbaycan ordu hissələrinin formalaşdırılması böyük sürətlə davam etdirildi. İngilis qoşunlarının Azərbaycan ərazisini tərk etməyə başlaması ilə 1919-cu il iyunun sonu-iyulun əvvəllərində Hərbi Nazirliyin rəhbər orqanları yenidən Bakıya köçürüldü.

1919-cu ilin iyun-iyul aylarında Zaqatala və Bakı piyada alaylarının formalaşdırılması başa çatdıqdan sonra İkinci piyada diviziyasının təşkil edilməsi zərurəti yarandı. Hərbi nazirin 1919-cu il 14 iyul tarixli müvafiq əmri ilə 1-ci Cavanşir, 2-ci Zaqatala və 3-cü Gəncə alayları Birinci piyada diviziyasında, 4-cü Quba və 5-ci Bakı piyada alayları isə 2-ci piyada diviziyasında birləşdirildilər.

Milli ordunun qoşun hissələri 1919-cu il avqustun 12-dən sentyabr ayının 3-dək Lənkəran əməliyyatında iştirak edərək, ölkənin cənub bölgəsində respublikanın ərazi bütövlüyünün təmin edilməsi ilə bağlı döyüş tapşırığını uğurla yerinə yetirdilər.

1919-cu ilin payızında təşkil edilən ən əhəmiyyətli hərbi strukturlardan biri Bakı istehkamçılar hissəsi idi. Bu strukturun yaradılmasında başlıca məqsəd şimaldan, xüsusən dənizdən ehtimal olunan Denikin təhlükəsinin qarşısını almaq və bütünlüklə, Bakı şəhərinin etibarlı müdafiəsini təşkil etmək idi.

Sentyabr ayında Bakı hərbi limanının, təyyarə dəstəsinin, zirehli avtomobillər taqımının, mövqe batareyasının ştatlarının formalaşdırılmasına başlandı. Sentyabrın 14-dən təyyarə dəstəsinin və zirehli avtomobillər dəstəsinin, sentyabrın 24-dən mövqe batareyasının, oktyabrın 1-dən isə "Astarabad" hərbi gəmisinin ştatlarının formalaşdırılması başa çatdırıldı.

Hərbi nazirlik bütün bu təşkilati işləri həyata keçirməklə 1919-cu ilin sonunadək Azərbaycan ordusunun heyətinin sayını 20 min nəfərə, ordudakı atların sayını isə 5 min başa, 1920-ci ildə isə ordunun sayını 40 min nəfərə, atların sayını 10 min başa çatdırmağı nəzərdə tuturdu. Buna nail olmaq üçün 1920-ci ilin ilk günlərindən etibarən çox geniş quruculuq işlərinin aparılması planlaşdırıldı.

1919-cu ilin yayından əvvəlcə Qarabağda, sonra Lənkəranda, daha sonra isə Zəngəzurda hərbi şəraitin kəskinləşməsinə baxmayaraq, hərbi nazirliyin rəhbərliyi ordu quruculuğu işindəki ahəngdarlığı saxlamağa çalışırdı. 1920-ci ilin elə ilk günündən 3-cü zirehli qatarın komplektləşdirilməsinə başlandı. 1920-ci ilin əvvəllərində növbəti çağırış səfərbərlik kampaniyası başlandı və ordunun ali idarəetmə orqanlarında əsaslı struktur dəyişiklikləri aparıldı. Həmin ilin mart ayında Baş ərkani-hərblə (Baş qərargahla) Ümumi qərargah birləşdirilərək Azərbaycan Ordusunun Qərargahı yaradıldı. Mərkəzi təminat və təchizat orqanları isə birləşdirilərək Azərbaycan ordusu təchizat rəisinin idarəsi təşkil edildi.

1920-ci ilin mart ayında bu qüvvələr bütünlüklə Qarabağ əməliyyatına və Ermənistanla sərhəd xəttində irimiqyaslı erməni təcavüzünə qarşı mübarizəyə səfərbər olundular. Nəticədə, şimal sərhədinin müdafiə sisteminin zəifləməsi bolşevik işğalı üçün daha əlverişli şərait yaratdı. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə ölkənin müstəqilliyinə və milli mənafelərə xidmət edən ordu quruculuğu yarımçıq qaldı. Aprel işğalından (1920) dərhal sonra Cümhuriyyət ordusunun hissələri ləğv edildi, müstəqillik dövründə milli ordu üçün yaradılmış maddi-texniki baza isə talan olundu.

# АЗЕРБАЙДЖАНСКАЯ СЕКЦИЯ МЕЖДУНАРОДНОЙ АКАДЕМИИ НАУК: НОВЫЕ ГОРИЗОНТЫ



09 июня состоялось расширенное заседание Президиума и ученого совета Азербайджанской Секции Международной Академии Наук (МАН).

Президент Азербайджанской Секции МАН, академик МАН и РАЕН, профессор, доктор геолого-минералогических наук ЭльчинХалиловобратившись с приветствием к участникам форума сделал краткое сообщение об участии делегации Азербайджанской Секции МАН на заседании Генеральной Ассамблеи Международного Совета по Научному Развитию/Международной Академии Наук, проходившей в Москве 31 мая 2018 года и посвященной 25-летнему юбилею Российской Секции Международной Академии Наук. Передав приветствие Президента МАН, академика, проф., доктора медицины Вальтера Кофлера членам Азербайджанской Секции МАН, он также сообщил о готовящемся к изданию в конце 2018 года четвертого тома докладов Международной Академии Наук «ScienceWithoutBordewrs».

Эльчин Халилов особо подчеркнул, что Азербайджанская Секция Международной Академии Наук, является национальным подразделением Международного Совета по Научному Развитию/Международной Академии Наук, штаб-квартира которой, в настоящее время, находится в Австрии. В составе Международной Академии Наук более 120 Нобелевских Лауреатов, список которых приведен на центральном сайте МАН. Кроме того, академик МАН Эльчин Халилов напомнил, что Азербайджанская Секция МАН была создана при непосредственной поддержке Общенационального Лидера Азербайджанского Народа, Президента Азербайджана Гейдара Алиева в 2001 году. Гейдар Алиев в 2002 году был избран почетным академиком Международной Академии Наук и награжден высшей наградой МАН – Золотым нагрудным знаком. Учредителями АС МАН явились – Национальная Академия Наук Азербайджана, Национальная Академия Авиации Азербайджана, БГУ, Азербайджанская Государственная Нефтяная Академия, Азербайджанский Медицинский Университет, Азербайджанский Технический Университет, Азербайджанский Государственный Университет Архитектуры и Строительства и другие ведущие вузы и научные организации Азербайджана, участвующие в подписании учредительского соглашения.

Академик МАН, член-корреспондент НАНА, доктор физико-математических наук, профессор Айюб Гулиев представил присутствующим последний юбилейный номер журнала «Вестник Международной Академии Наук. Российская Секция», в котором были опубликованы две статьи азербайджанских ученых: «Гипотеза о крупном планетном теле на периферии Солнечной системы» (авторы: академик МАН А.С.Гулиев и Р.А. Гулиев) и «Каспийско-Гирканский перешеек» - ключевое звено в «дороге Страбона», как часть великого шелкового пути" (автор: член-корреспондент МАН Т. Ш. Халилова).

Затем состоялось вручение дипломов избранным академикам Азербайджанской Секции Международной Академии Наук. Почетный Президент Азербайджанской Секции МАН, Академик НАНА и МАН, доктор экономических наук, профессор, председатель комитета по экономической политике, промышленности и предпринимательству Милли Меджлиса Азербайджана ЗиядСамедзаде вручил дипломы академиков АС МАН: доктору технических наук, профессору Мустафа Баба оглыБабанлы - ректору Азербайджанского Государственного Университета Нефти и Промышленности и доктору медицинских наук, профессору Герай Чингиз оглыГерайбейли - ректору Азеробайджанского Медицинского Университета. Диплом почетного академика МАН был вручен АлекберовуАгадаим Абдул Халыгоглу, почетному члену Американо-Азербайджанской торговой палаты, президенту международного информационного агентства «Прант», диплом член-корреспондента АС МАН был вручен доктору философии по историческим наукам, директору департамента гуманитарных наук АС МАН – Тамиле Ширин кызыХалиловой.



В соответствии с очередным вопросом повестки дня АС МАН, были представлены для избрания кандидатуры действительных и почетных членов АС МАН - известных ученых и видных общественных деятелей Азербайджана. Президент АС МАН Эльчин Халилов и академик ЗиядСамедзаде представили к избранию действительным членом АС МАН – видного ученого и общественного деятеля Азербайджана, доктора филологических наук, профессора, заместителя председателя Национального Олимпийского Комитета Азербайджана, вице-президента спортивной федерации исламской солидарности Чингиза Гусейнзаде. Вице-президентами АС МАН, академиками АС МАН, профессорами МахбубойВелиевой и Рза Махмудовым также были представлены к избранию действительными членами АС МАН - Гусейнов НазимШакароглы – доктор географических наук, профессор, руководитель воздушной метеорологической службы Управления воздушным движением «АЗЕРАЭРОНАВИГАЦИЯ» и Сеидов Аббас Гадироглы, доктор исторических наук, профессор Азербайджанского Государственного Экономического Университета. Были представлены их биографические данные и информация об их научно-педагогической деятельности. Представленные видные ученые были единогласно избраны академиками Азербайджанской Секции Международной Академии Наук. Почетным академиком АС МАН была избрана известный общественный деятель и журналист Азербайджана, Медина Эйлагкызы Гасанова, заслуженный журналист Азербайджана, посвятившая более 40 лет работе журналиста в газете «Вышка» и более 25 лет являющаяся главным редактором данной газеты, награжденная государственными и общественными наградами за заслуги в развитии национальных СМИ.

В завершении заседания состоялась презентация доклада член-корреспондента АС МАН, доктора философии по историческим наукам Тамилы Ширин кызыХалиловой на тему: «Каспийско-Гирканский перешеек» - ключевое звено в «дороге Страбона», как часть великого шелкового пути».

Было отмечено, что представленные исследования являются исторической частью готовящегося крупного научного международного мультидисциплинарного проекта «Каспийский маршрут Шелкового пути», выполняемого под эгидой Всемирной Организации по Научному Сотрудничеству (WOSCO, Германия) и Международной Академии Наук (Австрия).

В процессе обсуждения доклада выступили с представленными рецензиями на рукопись доклада – академик НАНА и АС МАН ЗиядСамедзаде, академик НАНА и АС МАН Пярвиз Мамедов и академик АС МАН, профессор, доктор исторических наук Аббас Сеидов, которые особо подчеркнули принципиальную новизну приведенных научных результатов исследований и их большой вклад в развитие древней истории Каспийского региона. В прениях также выступили – Рза



Махмудов, академик АС МАН, профессор, доктор географических наук, директор института гидрометеорологии Министерства Экологии и минеральных ресурсов Азербайджана, Шовги-Гейчайлы – академик АС МАН, профессор, доктор географических наук, заведующий кафедрой географической экологии Бакинского Государственного Университета и другие академики АС МАН. Было особо подчеркнуто, что приведенные в докладе исторические доказательства, основанные на глубоком анализе большого числа античных источников и подтвержденные геологическими данными, убедительно свидетельствуют о прохождении в древности от Апшеронского полуострова до берегов Западной Туркмении сухопутного перешейка, разделяющего в древности Каспийское море, по мнению Халиловой Тамилы, на два крупных бассейна. Северный бассейн в древности (нынешние Средний и Северный Каспий), в большинстве античных источников именовали, как Каспийское море, а южный – был представлен в качестве «Гирканского моря». Затем, в результате подъема уровня Каспийского моря и тектонических движений дна Каспия (по данным проф. Э. Н. Халилова и др.), произошло слияние двух морей и образование единого Каспийского моря в очертаниях, близких к сегодняшним.

Сухопутный перешеек, который являлся продолжением Большого Кавказа через Каспий и имеющий свое продолжение в Азии, в виде горного хребта Копетдаг, ныне в геологии именуется «Апшеронским порогом», который проходит поперек Каспия на очень малой глубине, по-прежнему разделяя две глубоководные котловины в Южном и Среднем Каспии. По данному пути проходил один из маршрутов шелкового пути, неизвестных современной науке. Известный среди историков Каспийский участок шелкового пути, именуемый «дорогой Страбона», который часто представляется в качестве морского пути через Каспийское море, не воспринимается убедительным, большинством крупных ученых мира. Их аргументы сводятся к тому, что в античных источниках Каспийское море представлено «не судоходным» из-за постоянных сильных штормов, в течение, почти 250-300 дней в году. В то же время, Тамила Халилова, говоря о «дороге Страбона» указывает, что Страбон нигде не упоминал, что товары из Азии на Кавказ доставлялись по морю, указывая только на направление маршрута.

По мнению Тамилы Халиловой, эта историческая неопределенность, стала основной причиной того, что Каспийский маршрут шелкового пути не был представлен на официальных исторических картах древних маршрутов шелкового пути в рамках концепции Председателя КНР Си Цзиньпина «Один пояс и один путь». Поэтому, данное научное исследование имеет огромное значение для Азербайджана, так как подводит мощную научную базу под стратегические проекты по воссозданию древнего маршрута шелкового пути через Каспийское море и территорию Азербайджана и реализацию глобальной экономической геополитической концепции Президента Азербайджана Ильхама Алиева по созданию транспортно-логистических коридоров – Запад-Восток и Север-Юг. Официальное признание данного исторического маршрута шелкового пути, позволит Азербайджану стать одним из главных участников масштабных инфраструктурных проектов Китая и ШОС в рамках реализации концепции «Один пояс и один путь».

В завершении, было принято решение об одобрении заслушанного доклада и дальнейшем расширении деятельности Азербайджанской Секции МАН в рамках международных научных проектов.

Афет Мамедов,
Академик АС МАН,
Руководитель Пресс-Службы
Азербайджанской Секции
Международной Академии
Наук



# Bakı Oksigen Kompani ASC-nin 31 dekabr 2017-ci il tarixinə BALANS HESABATI

| | Qeydlər | 31.12.2017 | 31.12.2016 |
|---|---|---|---|
| **AKTIVLƏR** | | | |
| **UZUNMÜDDƏTLİ AKTİVLƏR:** | | | |
| Torpaq, tikili və avadanlıq | 8 | 986 579 | 959 760 |
| Uzunmüddətli debitor borcları | 9 | 227 047 | 227 047 |
| Sair uzunmüddətli maliyyə aktivləri | 10 | 24 761 | 30 661 |
| Təxirə salınmış vergi aktivi | 7 | 70 424 | 80 153 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR:** | | **1 308 810** | **1 297 620** |
| **QISAMÜDDƏTLİ AKTİVLƏR:** | | | |
| Ehtiyatlar | 11 | 260 617 | 227 014 |
| Qısamüddətli debitor borcları | 12 | 1 101 199 | 1 008 361 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 13 | 37 167 | 109 719 |
| Sair qısamüddətli aktivlər | 14 | 70 402 | 88 561 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR:** | | **1 469 385** | **1 433 655** |
| **CƏMİ AKTİVLƏR** | | **2 778 196** | **2 731 275** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **KAPİTAL:** | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | 15 | 876 388 | 876 388 |
| Kapital ehtiyyatları | 16 | 940 143 | 940 143 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | (108 113) | (99 261) |
| **CƏMİ KAPİTAL:** | | **1 708 418** | **1 717 270** |
| **UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR:** | | | |
| Uzunmüddətli kreditor borcları | 17 | 652 873 | 654 595 |
| | | **652 873** | **654 595** |
| **QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR:** | | | |
| Qısamüddətli kreditor borcları | 17 | 416 905 | 359 410 |
| Sair qısamüddətli öhdəliklər | | | |
| | | **416 905** | **359 410** |
| **Cəmi öhdəliklər** | | **1 069 778** | **1 014 005** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **2 778 196** | **2 731 275** |
| | | **31.12.2017** | **31.12.2016** |
| Əsas əməliyyat gəliri | 5 | 2 174 439 | 2 979 699 |
| Satışın maya dəyəri | 6 | (1 504 866) | (2 215 189) |
| **Ümumi mənfəət** | | **669 573** | **764 510** |
| Sair əməliyyat gəlirləri | 5 | 11 390 | 33 768 |
| Kommersiya xərcləri | | (141 057) | (297 329) |
| İnzibati xərclər | 6 | (404 672) | (417 189) |
| Sair əməliyyat xərcləri | 6 | (54 427) | (51 564) |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **80 807** | **32 195** |
| Maliyyə gəliri | | | - |
| Maliyyə xərcləri | | | |
| **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | | **80 807** | **32 195** |
| Mənfəət vergisi | | (25 141) | (22 509) |
| Təxirə salınmış vergi aktivi | 7 | (9 729) | (6 026) |
| **Hesabat dövrünün xalis mənfəəti (zərəri)** | | **45 937** | **3 661** |

| | Ödənilmiş nizamnamə kapitalı | Kapital ehtiyyatları | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2016-ci il tarixinə qalıq** | **876 388** | **940 143** | **(99 261)** | **1717 270** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 0 | 0 | 45 937 | 45 937 |
| Kapitalda düzəlişlər | | | (54 789) | (54 789) |
| **31 dekabr 2016-cı il tarixinə qalıq** | **876 388** | **940 143** | **(108 113)** | **1 708418** |
| ***2016-ci il üzrə kapitalda ümumi dəyişikliklər*** | 0 | 0 | (8 852) | (8 852) |

| | Qeydlər | 31.12.2017 | 31.12.2016 |
|---|---|---|---|
| Müştərilərdən və işçilərdən daxil olan pul vəsaitləri | | 2 510 071 | 4 000 863 |
| Təchizatçılara və işçilərə ödənilən pul vəsaitləri | | (2381695) | (3695528) |
| **Əməliyyatlardan əldə olunan pul vəsaitləri** | | **128 377** | **305 335** |
| Ödənilmiş mənfəət vergisi | | (192 050) | (165 042) |
| **Əməliyyat fəaliyyətindən xalis pul vəsaitlərinin hərəkəti** | | (63 673) | (140 293) |
| Əsas vəsaitlərin satışı | | | |
| Əsas vəsaitlərin alışı | | (2 860) | (78 435) |
| Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borclar üzrə pul vəsaitlərinin xaricolmaları | | | |
| Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borclar üzrə pul vəsaitlərinin daxilolmaları | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | (2 860) | (78 435) |
| Borc şəklində alınmış pul vəsaitlərinin daxilolmaları | | | **20 000** |
| Borc şəklində alınmış pul vəsaitlərinin xaricolmaları | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin hərəkəti** | | | |
| Mübadilə məzənnələrinin dəyişməsinin təsiri | | (6 018) | 3 688 |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | **(72 552)** | **85 546** |
| Pul vəsaitləri və onların ekvivalentləri, *ilin əvvəlində* | 13 | 109 719 | 24 173 |
| Pul vəsaitləri və onların ekvivalentləri, *ilin sonunda* | 13 | 37 167 | 109 719 |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin komponentləri** | | | |
| Pul vəsaitləri | | 37 167 | 109 719 |
| Bank depozitləri | | - | - |


**MÜSTƏQİL AUDİTORUN HESABATI**

Biznes Audit

**"BAKI OKSİGEN KOMPANİ" Açıq Səhmdar Cəmiyyətinin Təsisçilərinə və Rəhbərliyinə:**

***RƏY***

Biz, "Bakı Oksigen Kompani"Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyəti, mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə mühasibat uçotunun əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir

***Rəy üçün əsaslar***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasının Qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu məcəllənin tələblərinə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Əsas audit məsələləri***

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

***Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti***

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkar edir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək halında olduğu halda əhəmiyyətli hesab edilir.

**Məhərrəm Əliyev**
**Baş direktor**

BİZNES AUDİT

**Rəşid Balakişiyev**
**Auditor**

29 may 2018-ci il
Bakı, Azərbaycan Respublikası

# "Bakcell"dən gənclər üçün "DaimOnline" imkanı




Yeni aylıq paketlər gənc istifadəçilərə qiqabaytlarla internet və sosial şəbəkələrdən limitsiz istifadə imkanı verir.

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell xüsusi olaraq gənc abunəçilər üçün yaradılmış tam yeni "DaimOnline" tariflərini təqdim edib.

Gənclər bir-biri ilə ünsiyyətdə olarkən daha çox sosial şəbəkələr və mesajlaşma tətbiqetmələrindən istifadə etməyə üstünlük verirlər.

Bunu nəzərə alaraq, Bakcell şirkəti yeni "DaimOnline" paketlərini təklif edir. Üç variantda və müvafiq olaraq 6, 10 və 20 manat aylıq abunə haqqı ilə təklif olunan yeni tarif paketləri sayəsində istifadəçilər limitsiz "WhatsApp", "Facebook" və "Instagram" istifadəsi ilə yanaşı, qiqabaytlarla internet və bol-bol şəbəkədaxili dəqiqələrdən yararlanacaqlar. "DaimOnline 6" tarifi çərçivəsində ayda sadəcə 6 AZN müqabilində 2 Gb İnternet trafiki və 50 şəbəkədaxili dəqiqə təqdim edilir. Bu tarifin əsas özəlliyi ondan ibarətdir ki, abunəçilər tamamilə limitsiz olaraq "WhatsApp"dan istifadə edəcəklər. Limitsiz "WhatsApp"a təkcə mətn deyil, hətta zənglər, şəkillərin, videoların və səs yazılarının göndərilməsi və yüklənməsi da daxildir.

Sosial şəbəkələrdən daha çox istifadə edən gənclər isə "DaimOnline 10" və "DaimOnline 20" tariflərinə üstünlük verəcəklər. Belə ki, qeyd olunan tariflərdə "WhatsApp", "Facebook" və "Instagram" istifadəsi tam olaraq limitsizdir! Bu tariflərin istifadəçiləri internet trafikin həcmini fikirləşmədən şəkilləri və videoları paylaşmaq, izləmək və həmin sosial şəbəkələrin bütün digər funksiyalardan istədikləri qədər istifadə edə bilərlər. Bundan əlavə, "DaimOnline 10" (aylıq abunə haqqı 10 AZN) abunəçiləri ayda 5 Gb İnternet və 200 şəbəkədaxili dəqiqə, "DaimOnline 20" (aylıq abunə haqqı 20 AZN) abunəçiləri isə ayda 20 Gb internet və 400 şəbəkədaxili dəqiqə qazanırlar.

Azərbaycanın telekommunikasiya bazarında ən innovativ mobil operator olaraq, Bakcell bütün müştəri seqmetlərinin ehtiyac və tələblərini öyrənmək üçün daim bazar araşdırmaları həyata keçirir. Limitsiz "WhatsApp", "Facebook" və "Instagram" imkanı təqdim edən yeni "DaimOnline" tarif paketlərini istifadəyə verməklə, Bakcell gənc müştəriləri istədikləri qədər çeviklik və limitsiz ünsiyyət üçün tam sərbəstliklə təmin edib. Bu yeni tariflər sayəsində gənclər daima onlayn olacaqlar.

İnnovasiyalar sahəsində özünü doğrultmuş lider olan Bakcell müasir rabitə xidmətləri istifadəçilərinə yenilənmiş, rahat və yenilikçi tariflər, məhsullar və xidmətləri təklif etməyə davam edəcək.

Bakcell şirkətinin yeni "DaimOnline" tarifləri və digər sərfəli və innovativ təklifləri barədə daha ətraflı məlumat almaq üçün www.bakcell.com səhifəsinə daxil olun.

# "Bakcell" şirkəti təbii fəlakətdən zərər çəkmiş bölgələrin sakinlərinə dəstək göstərib

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti Göyçay və Zaqatalada baş vermiş təbii fəlakətdən zərər çəkmiş bölgələrin sakinlərinə dəstək məqsədilə bir sıra tədbirlər həyata keçirib.

Bir müddət əvvəl Göyçay rayonunda baş vermiş güclü sel və Zaqatalada baş vermiş zəlzələ ilə əlaqədar olaraq Bakcell şirkəti həmin bölgələrdə yaşayan Bakcell abunəçilərinə ölkə daxilində bütün istiqamətlərə zənglər üçün pulsuz 150 dəqiqə təqdim edib. Dəqiqələrin istifadə müddəti 15 gün təşkil edir.

Həmçinin, Bakcell şirkətinin nümayəndələri Zaqatala rayonuna səfər edib və müqəddəs Ramazan bayramı ilə əlaqədar olaraq aztəminatlı və imkansız ailələrə bayram sovqatı paylayıblar.

Özünün genişmiqyaslı korporativ sosial fəaliyyətinə görə seçilən Bakcell şirkəti, Azərbaycan əhalisinin sosial müdafiəsi baxımından əhəmiyyətli olan layihələri daim diqqət mərkəzində saxlayır. Bakcell insanların sosial rifahının yaxşılaşdırılmasına xidmət edən Korporativ Sosial Məsuliyyət layihələri və xeyriyyə təşəbbüsləri həyata keçirir.



# Reytinq agentliyi: 2018-ci ildə Azərbaycan iqtisadiyyatının real artımı 1,5-1,8 faiz təşkil edəcək



Rusiyanın AKPA reytinq agentliyi 2018-ci ildə Azərbaycan iqtisadiyyatının real artımının 1,5-1,8 faiz təşkil edəcəyini gözləyir.

Bu barədə Trend-ə AKPA Tədqiqat və Proqnozlaşdırma Qrupunun direktor müavini Jannur Aşıqəli bildirib.

Onun sözlərinə görə, artıq 2019-cu ildə iqtisadiyyatın real artımı 2-2,5 faizə qədər yüksələcək. Qeyd edək ki, AKPA-nın proqnozları ümumi daxili məhsulun 1,5 faiz artacağını gözləyən Azərbaycan hakimiyyətinin proqnozları ilə üst-üstə düşür - hakimiyyət 2019-cu il üçün iqtisadiyyatın 4 faiz artacağını proqnozlaşdırır.

Agentliyin məlumatına görə, bu dövr üçün istehlak inflyasiyası dövrün sonuna zəifləmə tendensiyası ilə 6-6,5 faiz həddində olacaq: "AKPA gözləyir ki, Azərbaycan sabit-müsbət fazasına daxil olacaq, lakin iqtisadi artım təmkinli olacaq".

Azərbaycan Dövlət Statistika Komitəsinə əsasən, 2018-ci ilin yanvar-aprel aylarında ölkənin ÜDM-i 1,2 faiz təşkil edib, qeyri-neft iqtisadiyyatı 2,1 faiz artıb. Həmin dövr ərzində inflyasiya 3,5 faiz təşkil edib.

# Bu ilin beş ayında istehsal olunan sənaye məhsullarının 22 faizi emal sektorunun payına düşüb

Dövlət Statistika Komitəsindən bildiriblər ki, emal sektorunda tütün məmulatlarının istehsalı 2,6 dəfə, mebel istehsalı 96,8 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 95,6 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 61,4 faiz, geyim istehsalı 11,4 faiz artıb, içkilərin istehsalı 4,5 faiz, qida məhsullarının istehsalı isə 5,1 faiz azalıb.



# MARKETİNQİN KOMMUNİKASİYA PROSESİ




Marketinq kommunikasiyası bazarın digər subyektləri ilə əmtəənin təklifi subyektinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi prosesidir. Bazarın "digər subyektləri"nə aiddir: istehlakçılar, vasitəçilər, kontakt auditoriyası və s. Bununla belə, təbiidir ki, istehlakçılar prioritet, mütləq həlledici subyektlər kimi çıxış edirlər. Məhz onlar təklif subyektinə böyük təsir göstərir və şirkətin əmtəələrinə olan praktiki münasibətdən onun bazar mövqeyi asılıdır.

Marketinq kommunikasiyasının həyata keçirilməsi alətlərinə aiddir: reklam, satışın stimullaşdırılması, ictimaiyyətlə əlaqələr, birbaşa marketinq, şəxsi satış, brendinq, sərgilər, sponsorluq və s.

Marketinq komunikasiyaları kanallarına daxildir: televiziya, radio, qəzetlər, jurnallar, İnternet, xarici daşıyıcılar, məhsulun satışını həyata keçirən şəxsi heyət, kataloqlarının göndərilməsi, bukletlərin, hədiyyələrin, bonus-kartların verilməsi və s.

Marketinq kommunikasiyası prosesində istifadə olunan texnologiyalar kağız marketinq müraciətinin (məsələn, qəzetdə reklam), televiziyada nümayiş üçün videosüjetin, İnternetin şəbəkədə yerləşməsi üçün elektron müraciətin yaradılmasıdır.

Yuxarıda göstərilən marketinq kommunikasiyaları şüurlu yaradılan elementlərdir. Onlar şirkətin bazar siyasətinin aləti, onun menecmentinin qismən və ya tam fəaliyyət məhsuludur. Hər hansı marketinq kommunikasiyası üçün xarakterik olan beş əsas elementi ayırmaq olar. Onlara aiddir: alıcıların məlumatlandırılmsı, kommunikasiyanın məqsəd və vəzifələri, kommunikasiyanın yeri, marketinq prosesinin subyektləri və marketinq kommunikasiya fəaliyyətinin müxtəlif tipləri.

Ümumiyyətlə, marketinq kommunikasiyaları müəyyən informasiyanı konkret auditoriyaya çatdırmaq, onda hər hansı predmetin və ya prosesin müəyyən baxışını formalaşdırmaq və ya mövcud münasibəti dəyişmək üçün yaradılır.

Marketinq kommunikasiyalarının yaradılmasında digər bir məqsəd bütöv kommunikasiya proqramı ilə əlaqədar məqsədə nail olunmasında növbəti mərhələ kimi qarşıya qoyulmuş konkret vəzifələri həll etməkdən ibarətdir. Belə məqsədlərə ticarət markası haqqında alıcıların məlumatlandırılmasına istiqamətlənmiş şirkət fəaliyyətini, şirkətin və onun əmtəələrinin yüksək reytinqinin yaradılmasını aid etmək olar. Marketinq kommunikasiyanın yaradılmasının ən başlıca və son məqsədi məhsulun satışında şirkətə yardım göstərilməsi və biznesin daha uğurlu inkişaf etməsi üçün mənfəət əldə edilməsindən ibarətdir. Marketinq prosesinin subyektlərinə yalnız bu şirkətin mallarını təqdim edən alıcılar aid deyil. Şirkətin uğurlu fəaliyyətinə kömək edən bütün şəxslər marketinq kommunikasiyalarının subyektləri adlanır. Bunlara aiddir: əmtəənin satıldığı mağazaların, müəssisələrin işçiləri, məhsul göndərənlər, tədarükçülər, eləcə də dövri çap nəşrləri, dövlət nəzarəti orqanları. Bundan əlavə, digər iştirakçılara diler firmalarını, pərakəndə ticarətlə məşğul olan müəssisələri, maliyyə analitiklərini və istehsal müəssisələrinin yerləşdiyi yaşayış məytəqələrinin əhalisini aid etmək olar.

Bəzən marketinq kommunikasiyaları, məsələn, reklam ixtisaslaşdırılmış vasitəçilərin – reklam şirkətlərinin, PR agentliklərinin və s. iştirakı ilə yaradılır. Lakin bütün hallarda marketinq kommunikasiyalarının sifarişçisi, təşəbbüskarı bazara müəyyən məhsulu təqdim edən şirkətdir.

Eyni zamanda, marketinq xarakterli spontan, yəni öz-özünə əmələ gələn kommunikasiyalar mövcuddur. Bu, bazar subyektləri kimi istehlakçılar arasında bilavasitə qarşılıqlı fəaliyyətdir. Belə ki, biz tez-tez öz yaxınlarımızdan, dostlarımızdan, həmkarlarımızdan aldığımız informasiya əsasında bu və ya digər əmtəənin alqısı haqqında qərar qəbul edirik. Beləliklə, bu insanlar marketinq kommunikatorları olurlar – bizə informasiyanı, öz istehlak təcrübəsini və əmtəəyə münasibəti, ticarət markalarını, şirkətləri, yəni bizim istehlak qərarlarımıza təsir edən hər şeyi ötürürlər.

Şirkətlərin, bütünlükdə belə bir kommunikasiya prosesinə təsir etməsi kifayət qədər mürəkkəbdir və onların bilavasitə təsir dairələrindən kənarda baş verir, spontandır, xarici baxımdan idarəolunmazdır. Lakin marketoloqların istehlakçılar qrupunda fərdi kommunikasiyalar prosesinə təsir imkanları qalır.

Hər bir şirkət özünün fəaliyyət miqyasını və sferasını, maliyyə imkanlarını, resurs potensialını, idarəetmə baxışlarını, menecerlərin və mülkiyyətçilərin planlarını və s. nəzərə alaraq marketinq kommunukasiya sistemini yaradır. Bununla belə, hər hansı bir kommunikasiya prosesi bu prosesin ümumi mexanizmini, tipik strukturunu formalaşdıran bir neçə baza elementlərinə malikdir.

Bazar subyektlərinə ötürülməsi üçün informasiyaya malik təşkilat və ya ayrıca bir şəxs xəbərin göndəricisidir.

Kommunikasiya prosesində göndərici ilkin təçəbbüsçü şəxsdir. Xəbərin alıcıları xəbəri alan istehlakçılardır. Marketinq kommunikasiya prosesinin səmərəliliyinin vacib şərti xəbərin, yaxud bildirişin dəqiq "hədəfə dəyməsi"dir. Kimin xəbəri, yaxud bildirişi alması vacib deyil, onun məqsədli auditoriyaya – şirkətin real və potensial istehlakçılarına çatdırılması vacibdir.

Xəbər ötürülən məlumatdır. Məlumatın ötürülməsi kommunikasiya simvollarına fikrin yaranmasının hansı formasından istifadə edilməsini tələb edir. Məlumat xarakterli xəbərin kodlaşdırılması göndəricinin fikrinin, kommunikasiya məqsədinin, kommunikasiya simvollarının müəyyən dəstinə çevrilməsi prosesidir. Hədəflər ayrıca kommunikasiya simvolları, hərflərin əlaqələndirilməsi kimi, sözlər isə inteqrasiyalı kommunikasiyalı simvollar hesab olunur. Verbal, yəni şifahi simvolların köməyilə kodlaşdırma, yəqin ki, ən sadə forma sayılır. Şirkət istehlakçıya öz müraciətini verbal olaraq kodlaşdıra bilər, məsələn, "Bizim pəncərə ən ekolojidir". Verbal kodaşdırmadan başqa, onun qeyri-verbal formalarından: məsələn, şəkillərdən, videosüjetlərdən, fotoqrafiyalardan, səslərdən istifadə olunur. Həmçinin, kombinələşmiş kodlaşmadan – verbal və qeyri-verbal simvolların əlaqələndirilməsindən istifadə oluna bilər.

İnsanlar özlərində bioloji və sosial keyfiyyətləri birləşdirir. İnsanların həyat şəraitinin sosiallığı onlardan kommunikasiya tədbirlərinin yaradılmasını, istifadə edilməsini və təkmilləşdirilməsini tələb edir. Onların yaratdığı kommunikasiya "nitqi" böyük sivilizasiyalı nailiyyətdir, ictimai və şəxsi inkişafın ən vacib şərtlərindən biridir. Həm kodlaşdırma mərhələsində, həm də dekodlaşdırma mərhələsində marketinq insanlar arasında informasiya mübadiləsi vasitəsilə ümumi sivilizasiyalı nailiyyətlərdən istifadə edir.

İnformasiya xəbərinin dekodlaşdırılması müəyyən fikir üçün xəbəri təşkil edən kommunikasiya simvollarının dəyişdirilməsi (izah edilməsi) prosesidir. Dekodlaşdırma xəbəri alanın, yəni istehlakçının işidir. Bu, xəbərin şərhidir, xətlərin dekodlaşdırılması kifayət qədər mürəkkəb və ziddiyyətli prosesdir. Məsələn, mağazada satıcının təbəssümü onun alıcı ilə kommunikasiyasının elementidir, həmsöhbətlərə və vəziyyətə münasibətidir. Lakin satıcının təbəssümü müştərilər tərəfindən müxtəlif cür qəbul oluna, kodlaşdırıla bilər: kimsə təbəssümü satıcıda müştərilərə yaxşı xidmət etmək, səmimilik, kimsə onu firmanın rəhbərliyinin tələblərinin satıcı tərəfindən yerinə yetirilməsi kimi qiymətləndirir, kimsə də onu müştəriyə istehzalı münasibət kimi görə bilər. Beləliklə, kifayət qədər aydındır ki, xəbərdə kodlaşdırılan fikir xəbərin dekodlaşdırılmasından, müvafiq şərhindən sonra bu xəbəri alanda yaratdığı fikirdən fərqlənir. Belə uyğunsuzluq marketoloqlar üçün, onların fəaliyyəti, xüsusilə kommunikasiya fəaliyyəti üçün daha bir "sualtı daş", "rif" ola bilər.

Alan istehlakçı tərəfindən marketinq müraciətinin dekodlaşdırılması cavab verir ki, istehlakçı xəbəri necə kodlaşdırır, onu necə anlayır. Emosiya, həmçinin istehlakçının xəbəri necə qəbul etməsidir. Praktiki reaksiya onun praktiki parçalarında – istehlakçının aldığı xəbər üzrə hansı əmtəəni almaq və ya almamaq qərarına əks olunur.

Kommunikasiya prosesinin maneələri həm birbaşa, həm də əks istiqamətdə marketinq kommunikasiya prosesinin həyata keçirilməsinə əngəl törədən amillərdir. Məsələn, mağazadakı satıcı alıcıların rəyinə, şirkətin müəyyən kommunikasiya tədbirlərinə reaksiya verməsinə qulaq asır. Sonra satıcı mağaza müdirinə və ya şirkətin rəhbərliyinə öz təklif və nəticələrini verir – onlar alıcılardan eşitdiyi şərhlərdir. Reklam müraciətində hər hansı bir ingilis sözündən istifadə edilməsi (əgər xəbəri olan onu Azərbaycan dilinə tərcümə edə bilmirsə) kommunikasiya prosesində, həmçinin maneəyə çevrilə bilər.

Beləliklə, marketinq kommunikasiya prosesi bir sıra elementlərə malikdir, müəyyən ardıcıllığı, birbaşa və əks əlaqələrin mövcudluğunu tələb edir. Onun xarici sadəliyi istehlakçılara səmərəli kommunikasiyasının təmin edilməsi üçün kifayət qədər mürəkkəb məsələləri gizlədir.

**BDU-nun dosenti**
**F.M.Qarayev**




# "Viza rüsumlarındakı dəyişikliklər Azərbaycana təsir etməyəcək"

Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyi Aİ-nin viza siyasətindəki islahatlar məsələsinə aydınlıq gətirib.

Aİ-nin Azərbaycandakı nümayəndəliyindən verilən məlumata görə, bəzi ölkələrdə viza verilməsi qaydalarındakı dəyişikliklər 2019-cu ilin ikinci yarısından tez tətbiq edilməyəcək.

Bununla yanaşı, viza rüsumlarındakı dəyişikliklər viza rejiminin sadələşdirilməsi haqqında saziş imzalamış ölkələrə təsir etməyəcək. "Beləliklə, viza rüsumlarındakı dəyişikliklər Azərbaycana təsir etməyəcək", - Aİ nümayəndəliyindən bildiriblər.

Xatırladaq ki, iyunun 19-da Aİ hökuməti viza siyasətində readmissiya məsələləri üzrə kifayət qədər əməkdaşlıq etməyən ölkələrə münasibətdə viza verilməsi qaydalarının sərtləşdirilməsini nəzərdə tutan islahatlar üzrə danışıqlara başlayıb.

Dəyişikliklər, həmçinin viza haqqının 80 avroya qədər artımını nəzərdə tutur.



Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Milli Məclisin deputatı İqbal Məmmədova bacısı oğlu
**EMİL ŞAHPƏLƏNGLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Mətanət A" şirkətinin prezidenti Elxan Bəşirov Milli Məclisin deputatı İqbal Məmmədova bacısı oğlu
**EMİL ŞAHPƏLƏNGLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi Milli Məclisin deputatı İqbal Məmmədova bacısı oğlu
**EMİL ŞAHPƏLƏNGLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: 566 09 60**
**Faks: 514 14 27**
**Mühasibatlıq: 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500**